Xalq qəzeti.- 2023.- 24 dekabr, № 282.- S. 11

Əli Əhmədov – 80

**Professor Əli Əhmədov riyaziyyat elminin ən çətin və fundamental sahələrindən olan funksional analiz sahəsində tanınan mütəxəssisdir. 1943-cü ilin dekabrında Cəbrayıl rayonunun Əfəndilər kəndində anadan olmuşdur. Orta məktəbi qızıl medalla bitirərək 1961-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsinə daxil olmuş və universiteti fərqlənmə diplomu ilə bitirmişdir.**

# Azərbaycan elmini dünyada tanıdan riyaziyyatçı



Ali təhsil illərində elmi fəaliyyəti tale yolu kimi qəbul edən Əli müəllim 1966-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitunun aspiranturasına daxil olmuşdur. 1970-ci ildə akademik Cəlal Allahverdiyevin rəhbərliyi altında riyazi analiz ixtisası üzrə "Banax fəzasında spektral parametrdən rasional asılı olan tamam kəsilməz operatorların bəzi spektral xassələri" mövzusunda namizədlik dissertasiyasını, 1994-cü ildə isə "Spektral operatorlara yaxın xətti operatorların spektral nəzəriyyəsinin məsələləri və onların tətbiqləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bu dissertasiyaların opponentləri dünyanın tanınmış riyaziyyatçıları akademik V.P.Maslov, professor M.Naymark, professor V.Lyanse, akademik M.Qasımov və akademik F.Maqsudov kimi görkəmli alimlər olmuşdur.

Əli müəllimin AMEA-nın Kibernetika İnstitutundan başlayan əmək bioqrafiyası ali təhsil aldığı Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində davam etmiş, 1972-ci ildən bu şöhrətli elm ocağından bir gün belə ayrılmamışdır. Universitetin funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasında dosent, professor olmuşdur. 1996-cı ildən isə bu kafedranın müdiridir. Bu barədə söhbət düşəndə qürur hissi ilə deyir: "Müəllimlik ən şərəfli peşədir, vaxtilə müəllimlərimin öyrətdiklərini tələbələrimə qaytarmaq onların yolunu davam etdirmək və mənim gəncliyə töhfəmdir".

Professor Əli Əhmədovun alim ömrünün önəmli bir hissəsi də ABŞ-ın Viskonsin Universiteti ilə bağlıdır. O, hələ sovet dövründə – 1978–1979-cu illərdə Amerikanın Medison şəhərində yerləşən bu məşhur universitetdə elmi ezamiyyətdə olmuşdur. Soydaşımız burada dünyanın məşhur riyaziyyatçılarından professorlar V. Rudin, V. Vasov, M. Rudin, R. Törner kimi alimlərlə birgə çalışmış və elmi-tədqiqat işləri aparmışdır. Elə bu ezamiyyətdən sonra riyaziyyatçılar arasında onu "Amerikalı Əli" adlandırmışlar. Özü isə bu barədə deyir:

– Amerika kimi məşhur bir dövlətin elmi potensialı ilə tanışlıq olduqca faydalı oldu. Həm də fəxr edirəm ki, ABŞ-da çalışan ilkazərbaycanlı alimlərdən biri də mən olmuşam. Bizim alimlərin potensialının bu fövqəlölkədə yüksək qiymətləndirilməsi qürurverici haldır. Bu ölkəyə elmi ezamiyyətim mənim Amerika ilə ilk əyani tanışlığım olsa da, dünya şöhrətli alim, qeyri-səlis nəzəriyyənin banisi Lütfi Zadə ilə o zamankı görüşüm həyatımın ən yaddaqalan hadisələrindəndir. İlk görüşümüzdən sadəliyi, səmimiliyi ilə yadda qalan bu böyük azərbaycanlıya məşhur azərbaycanlı akademiklər Əşrəf Hüseynoun və Cəlal Allahverdiyevin verdikləri Nəsiminin ingilis dilində nəşr olunmuş qəzəllər kitabını bağışladım. Kitabı alıb uşaq kimi sevindi, məndən ayrılana kimi, kənara çəkilib kitabı oxumağa başladı. Gün ərzində Vətənin bu qiymətli töhfəsi əlindən düşmədi.

Əli müəllimin Amerika ilə bağlı bioqrafiyasına yazılan başqa bir yenilik onun çalışdığı Viskonsin Universitetinin SSRİ-dən olan gənc elmi tədqiqatçılar arasındn ilk dəfə Elmi Şuranın Fəxri üzvü seçilməsi olmuşdur. Maraqlıdır ki, onun bu vəzifəyə seçilməsini o dövrdə SSRİ Təhsil Nazirliyi də sovet elminin uğuru kimi qiymətləndirilmiş, alim Fəxri fərmanla təltif edilmişdir. Professor Əli Əhmədov ABŞ-dan Vətənə döndükdən sonra doğma universitetində ingilis dilində seminarlar təşkil etmiş və bu dərslərdə digər universitetlərin tələbələri də böyük həvəslə iştirak etmişlər. Bu təşəbbüs sonralar respublikada riyaziyyat və digər ixtisaslar üzrə ingilisdilli qrupların açılmasına təkan vermiş və indi də uğurla davam edir.

Professor Əli Əhmədov ABŞ Riyaziyyatçılar Cəmiyyətinin də üzvüdür. O, tez-tez beynəlxalq elmi konfranslarda dəvətli məruzəçi, Elmi və Təşkilat Komitələrinin üzvü kimi iştirak edir. Bu konfransların keçirildiyi, onun sıx əməkdaşlıq etdiyi ölkələr sırasında ABŞ, Ispaniya, Rusiya, Ukraina, Yaponiya, Nepal, Bolqarıstan, Hindistan, Türkiyə, İran, İraq, Misir, Polşa kimi ölkələr var. Əli müəllim nəinki respublika, hətta xarici ölkə gənclərinin bir alim kimi yetişməsində fəal iştirak edir. Professor Əli Əhmədovun Səudiyyə Ərəbistanı kralının təbiət elmləri üzrə təsis etdiyi mükafata layiq görülməsi dünya elm və təhsilinə göstərdiyi xidmətin nişanəsidir.

Tanınmış riyaziyyatçı ulu öndər Heydər Əliyevin tapşırığı ilə Moskva, Leninqrad və Kiyev kimi şəhərlərinin universitetlərində təhsil alan azərbaycanlı tələbələrə kömək üçün təşkil olunan komissiyanın üzvü olmuşdur. Azərbaycan rəhbərinin bu təşəbbüsü o zaman SSRİ Ali Təhsil Nazirliyi tərəfinyayılması tövsiyyə edilmişdir.

Əli müəllim bir sıra beynəlxalq elmi jurnalların redaksiya heyətinin üzvü və bir neçə beynəlxalq nəşriyyatın riyaziyyat üzrə elmi redaktorudur. Respublikamızda fəaliyyət göstərən namizədlik və doktorluq Elmi Şurasının rəhbərlərindəndir. Rspublikada və xaricdə bunların 60-dan çoxu xaricdə nəşr olunan, yüksək reytinqli jurnallarda işıq üzü görmüşdür.

Professor Əli Əhmədovun elm və təhsildə göstərdiyi səmərəli fəaliyyətini dövlətimiz də yüksək qiymətləndirmişdir. O, 2019-cu ildə Prezident İlham Əliyevin sərancamı ilə 3-cü dərəcəli "Əmək ordeni" ilə təltif olunmuşdur. Pedaqoq alim bu gün də böyük həvəslə gənc riyaziyyatçılar nəslinin yetişməsində xidmətlərini davam etdirir.

Əli Əhmədov təkcə səmimi iş yoldaşı, nüfuzlu müəllim, dünya şöhrətli alim kimi deyil, həm də zəngin dünyagörüşlü ziyalı, vətənpərvər insan kimi tanınır. Çox mehriban, sakit təbiətli, hər kəslə öz dilində danışmağı bacaran Əli müəllimin bu səmimiyyətini ciddiliyi və mübarizliyi tamamlayır. Bütünlükdə, xalqımıza xas bu mübarizlik əzəli torpaqlarımızı, eləcə də tanınmış alimi, ölkəmizə bəxş etmiş Cəbrayılı 30 illik düşmən tapdağından azad etdi. Alim yaşlı soydaşlarımızın bir çoxuna nəsib olmayan bu Zəfəri talenin ən xoş töhfəsi sayır.

Bugünlərdə 80 yaşı tamam olan professor Əli Əhmədovun mənalı yaşanmış, xalqına xidmətdə keçmiş, ölkəsinə başucalığı gətirmiş ömür yolu şərəfli və şöhrətli həyat örnəyidir.

***Məhəmməd MEHDİYEV,***
***AMEA-nın həqiqi üzvü***
***Misir MƏRDANOV,***
***AMEA-nın müxbir üzvü***